# Test

**1.Konvensiyanın 2-ci maddəsi hansı hüququ təmin edir:**

a) işgəncələrə və qeyri-insani rəftara məruz qalmamaq hüququnu;

b) istədiyi zaman ölmək hüququnu;

c) müvafiq səviyyədə tibbi yardımla təmin olunmaq hüququnu;

d) şəxsin həyatına qəsd edildikdə əməlin araşdırılması hüququnu;

**2.2-ci maddədən geri çəkilməyə yol verilirmi?**

a) bu hüquqdan istisnasız olaraq geri çəkilməyə yol verilmir;

b) bu hüquqdan ancaq dövlətin daxili qanunvericiliyində nəzərdə tutulan hallarda geri çəkilməyə yol verilir;

c) bu hüquqdan yalnız qanuni müharibə halları zamanı geri çəkilməyə yol verilir.

d) bu hüquqdan Konvensiyada nəzərdə tutulmuş fövqəladə hallarda geri çəkilməyə yol verilir.

**3. 2-ci maddə ilə əhatə olunur:**

a) həyatın keyfiyyətini təmin edən sosial təminatlar, müavinətlərin səviyyəsi;

b) abortlar və doğulmamış uşağın müdafiəsi;

c) dövlətdə tibbi xidmətin səviyyəsi;

d) heç biri;

**4. 2-ci maddəyə əsasən Dövlətin pozitiv öhdəliyinə aiddir:**

a) dövlətdə həyatdan məhrum etmə ilə bağlı cinayət məsuliyyətinə cəlb etmənin sisteminin yaradılması;

b) güc orqanları tərəfindən əsaslandırılmamış güc tətbiq edilməməsi;

c) ölüm hallarının effektiv istintaqının aparılması;

d) güc tətbiq etmə "mütləq zərurət" halı olmadığı təqdirdə tətbiq edilməməsi;

**5. 2-ci maddəyə əsasən Dövlətin neqativ öhdəliyinə aiddir:**

a) dövlətdə həyatdan məhrum etmə ilə bağlı cinayət məsuliyyətinə cəlb etmənin sisteminin yaradılması;

b) güc orqanları tərəfindən əsaslandırılmamış güc tətbiq edilməməsi;

c) ölüm hallarının effektiv istintaqının aparılması;

d) gücün "ağlabatan zərurət" halı olmadığı təqdirdə tətbiq edilməməsi;

**6. 2-ci maddəyə əsasən Dövlətin prosedur öhdəliyinə aiddir:**

a) dövlətdə həyatdan məhrum etmə ilə bağlı cinayət məsuliyyətinə cəlb etmənin sisteminin yaradılması;

b) güc orqanları tərəfindən əsaslandırılmamış güc tətbiq edilməməsi;

c) ölüm hallarının effektiv istintaqının aparılması;

d) güc tətbiq etmə "ağlabatan zərurət" halı olmadığı təqdirdə tətbiq edilməməsi;

**7.Həyatdan məhrum etmə hansı hallarda qanuni sayılır:**

a) Həyatdan məhrum etmə yalnız Konvensiyanın 2-ci maddəsində göstərilən hallarda göstərilən hallarda həyata keçirildiyi təqdirdə, qanuni sayılır;

b) həyatdan məhrum etmə heç bir əsasla qanuni sayıla bilməz;

c) insanlıq əleyhinə, sülh və bəşəriyyət əleyhinə törədilmiş cinayətlərlə mübarizə zamanı həyata keçirildikdə qanuni sayılır;

d) müharibə vaxtı həyata keçirildikdə qanuni sayılır;

**8. Öldürülmüş şəxsin vərəsələrinin cinayət işinin istintaqı zamanı cəlb edilməsi zəruridirmi?**

a) buna lüzum yoxdur, istintaqın qanun çərçivəsində aparılması kifayət edir;

b) bütün hallarda öldürülmüş şəxsin vərəsələri onun qanuni maraqlarını təmin etmək üçün prosesə cəlb olunmalıdır;

c) bütün hallarda deyil, xüsusi amansızlıqla həyatdan məhrum etmə hallarında öldürülmüş şəxsin vərəsələri prosesə cəlb olunmalıdır;

d) yalnız şəxs itkin düşdükdə və bununla bağlı istintaq aparıldıqda həmin şəxsin vərəsələri prosesə cəlb olunmalıdır;

**9. Konvensiyanın 2-ci maddəsi iştirakçı dövlətlərə hansı göstərişi verir:**

a) "bilərəkdən", qəsdən həyatdan məhrum etməmək;

b) həmin maddədə göstərilən qanuni məqsədlərə mütənasib olan “güc tətbiqi” vasitəsilə insanı həyatdan mərhum etməkdən çəkinmək

c) həm də yurisdiksiyalarında olan şəxslərin həyatını qorumaq üçün müvafiq tədbirlər görmək;

**10. Konvensiyanın 2-ci maddəsinə əsasəniştirakçı dövlətin vəzifələri ilə bağlı hansı fikirlər doğrudur?:**

a) Dövlətin əsas vəzifəsi nəticədir - təqsirkar şəxsi cəzalandırmaqdır;

b)Araşdırmanı elə səmərəli şəkildə aparmaq ki,insidentin baş verdiyi şəraiti müəyyən etmək və məsuliyyət daşıyanları aşkara çıxarmaq və cəzalandırmaq iqtidarında olmaq. Əsas nəticəyə deyil,vasitələrə aid öhdəlikdir.

c) Araşdırmanın dərhal və ağlabatan cəldliklə aparmaq;

d) Araşdırmanın aparılması müddəti əhəmiyyət kəsb etmir, əsas odur ki, təqsirkar şəxs cəzalandırılsın;

**11. Konvensiyanın 2-ci maddəsinə əsasən iştirakçı dövlətin vəzifələri ilə bağlı hansı fikirlər yalnışdır?:**

a) həm praktiki, həm də nəzəri cəhətdən hesabatlılığı təmin etmək üçün araşdırma və ya onun nəticələri üzərində yetərli ictimai nəzarət elementi olmalıdır;

b) bütün hallarda qurbanın yaxın qohumu onun qanuni maraqlarının təmin olunması üçün zəruri olan dərəcədə prosedura cəlb olunmalıdır;

c) bütün hallarda qurbanın yaxın qohumu istintaq materialları ilə məhkəməyəqədər, istintaq zamanı tanış edilməlidir;

d) Dövlətin fərdlərin yaşamaq hüququnu təmin etmək vəzifəsi müvafiq hallarda həmçinin dövlət orqanlarının pozitiv öhdəliyi onlarının üzərinə qeyri-real və qeyri-mütənasib yük qoyan öhdəlik kimi şərh olunmamalıdır.

**12.** 2-ci maddə ilə bağlı deyilən fikirlərdən hansı doğrudur?:

a) 2-ci maddənin 2-ci paraqrafı şəxsi qəsdən həyatdan məhrum etmə hallarını müəyyən edir;

b) 2-ci maddənin 2-ci paraqrafı "mütləq zərurət" olduqda qabaqcadan arzu olunmayan və ölümlə nəticələnə biləcək güc tətbiqi hallarını müəyyən edir.

c) 2-ci maddə çərçivəsində araşdırma apararkən Avropa Məhkəməsi təkcə güc tətbiq etmə anını deyil, eləcə dəəməliyyatın həyata keçirilməsini və ona nəzarəti də nəzərdən keçirir;

d) Ancaq dövlət məmuru tərəfindən həyatdan məhrumetmə halı baş verdikdə Dövlətin araşdırma öhdəliyi vardır, digər hallarda həmin işlər Avropa Məhkəməsində *ratione materiae* qəbuledilməz elan edilir.

**13.** Mikayıl Məmmədov Azərbaycana qarşı işlə bağlıqeyd edilənlərdən hansı doğrudur?:

a) 2-ci maddənin maddi-hüquqi aspekti ilə bağlı Dövlətin öhdəliyinin pozuntusu müəyyən edildi;

b) 2-ci maddənin prosedur aspekti ilə bağlı Dövlətin öhdəliyinin pozuntusu müəyyən edildi;

c) dövlət hakimiyyəti orqanları onun mənzil toxunulmazlığına və şəxsi həyatına hörmət hüququnu pozduğunu müəyyən edildi;

d) 8-ci maddənin pozuntusunu iddia etmək üçün daxili qanunvericilik imkanlarının tükəndirilmədiyini müəyyən etdi;

**14. Makkan (McCann) və başqaları Birləşmiş Krallığa qarşı işdə Məhkəmə aşağıdakıları müəyyən etdi:**

a) separatizm və terrorizmlə mübarizə zamanı 2-ci maddədən kənaraçıxmaya yol verilir;

b) Terrorizmlə mübarizə zamanı əməliyyat lazımi qaydada təşkil edilib planlaşdırılmalı və terrorist belə olsalar, onların həyatlarının qorunması öhdəliyinə riayət edilməli, tətbiq edilən güc mütləq zəruri olmalıdır;

c) Terroristlərin məhv edilməsi insanları hüquqazidd zorakılıqdan qorumaq məqsədilə Konvensiyanın 2-ci maddəsinin 2-ci paraqrafının a) bəndinin mənasına əsasən mütləq zəruridir;

d) Terroristlərin daha düzgün planlaşdırılmış əməliyyat nəticəsində məhv edilmədən zərərsizləşdirilməsi mümkün olduğundan 2-ci maddənin pozuntusu müəyyən edildi;

**15. Aşağıdakı fikirlərdən hansı doğrudur?:**

a) şəxs törətdiyi əmələ görə ölüm hökmünə məruz qala biləcəyi təqdirdə tələb olunduğu ölkəyə ekstradisiya oluna bilməz;

b) ölümlə nəticələnə bilən qanuni güc tətbiqinin halları məhdudlaşdırıcı təvsir olunmalıdır;

c) şəxsin həbsdə olduğu vaxt ona travma yetirildiyi və ya öldüyü halda, dövlətin təqsiri prezumpsiyası mövcuddur. Bu zaman sübutetmə yükü hakimiyyətin üzərinə düşür və məhz hakimiyyət orqanları baş vermiş faktlara dair təminedici və inandırıcı izahatlar təqdim etməlidirlər;

d) 2-ci maddə ilə baxılan işlərdə səmərəsiz olsa belə, daxili imkanların tükəndirilməsi mütləq və zəruridir;

**16. Aşağıdakı fikirlərdən hansı yalnışdır?:**

a) araşdırmanın aparılmasına görə cavabdehlik daşıyan şəxslər hadisələrdə iştirak etmiş şəxslərdən müstəqil olmalıdırlar. Bu tələb vəzifə (iyerarxiya) cəhətdən və ya təşkilati (institusional) baxımdan müstəqilliyi, habelə praktiki müstəqilliyi nəzərdə tutur;

b) şübhəli ölüm hallarında dövlət orqanları, araşdırma barədə təşəbbüsü qurbanın yaxın qohumunun öhdəsinə buraxıb onun şikayət verməsini gözləməlidirlər;

c) Araşdırma çərçivəsində ölümün səbəbinin və ya məsuliyyət daşıyan şəxsin müəyyən edilməsinə xələl gətirən hər hansı qüsur araşdırmanın səmərəlilik standartına cavab verməməsi riskini doğurur;

d) Ölüm hallarının araşdırılması zamanı ictimai nəzarətin tələb olunan dərəcəsi ayrı-ayrı hallarda fərqli ola bilər;

**17. 2-ci maddə ilə əhatə olunur:**

a) istənilən ölüm halı;

b) evtanaziya;

c) hər ikisi;

d) heç biri;

**18. Dövlətin pozitiv öhdəliyi hesab olunur:**

a) şəxsin iradəsinə zidd olaraq hamiləliyin pozulmasına görə sanksiyanın müəyyən edilməsi;

b) həyatdan məhrum etmə ilə bağlı cinayət məsuliyyətinə cəlb etmənin sisteminin yaradılması;

c) hər ikisi;

d) heç biri;

**19. Dövlətin neqativ öhdəliyi hesab olunur:**

a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün güc tətbiqindən mütləq zəruri deyilsə çəkinmək;

b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün qanuni güc tətbiq etmək;

c) qanuna müvafiq olaraq iğtişaş və ya qiyamın yatırılması üçün qanuni güc tətbiq etmək;

d) hamısı;

**20. 2-ci maddə aspektində "Effektiv məhkəmə sistemi" ilə bağlı aşağıdakı fikirlərdən hansı doğrudur?:**

a) Yaşamaq hüququ qəsdən pozulmamışdırsa, "effektiv məhkəmə sisteminin" yaradılmasına dair pozitiv öhdəlik hər bir işdə cinayət işinin başlanmasını tələb etmir, zərərçəkənə mülki, inzibati və ya intizam qaydada hüquqi müdafiə vasitəsi təqdim olunması formasında həmin öhdəlik təmin oluna bilər.

b) ölüm işinin araşdırılması zamanı "Effektiv məhkəmə sistemi"nə dair minimal tələblərdən biri araşdırma aparan şəxslərin hadisə ilə bağlı olan şəxslərdən institusional və ya iyerarxik asılılığın olmamasıdır;

c) hər ikisi;

d) heç biri;

**21. Suisidal meylləri olan məhkuma münasibətdə dövlətin pozitiv öhdəliyinin pozulması üçün vacibdir:**

a) hakimiyyət nümayəndələri həmin şəxsin həyatı üçün real və bilavasitə riskin mövcudluğunu bilməlidirlər və bunu bildikləri halda öz səlahiyyətləri daxilində belə riskin qarşısını almaq üçün obyektiv olaraq gözlənilən tədbirləri görməmişlər;

b) Həbsdə olan şəxs öldüyü hər bir halda Dövlət pozitiv öhdəliyi pozulmuş hesab edilir;

c) Həbsdə olan şəxs öldüyü hər bir halda Dövlət pozitiv öhdəliyi pozulmuş hesab edilmir;

d) heç biri.

*Hazırladı: Günel Sevdimalıyeva*